# Tapdıq ƏLİBƏYLİ - 60



Hörmətli Tapdıq müəllim!

Sizi - tanınmış şair-publisisti 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1 iyul 1961-ci ildə Yardımlı rayonunun Bürzünbül kəndində anadan olmuş, burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almısınız. Əmək fəaliyyətinə "Şirvanneft"də başlamış, 1982-1986-cı illərdə "Azərneftdə" çalışmısınız. Sonra Azərbaycan Hava Yolları Binə hava limanında təhlükəsizlik xidmətində çalışmısınız. 1997-1998-ci illərdə "Babadağ", 1998-2000-ci illərdə "Paklıq" qəzetinin redaktoru olmusunuz. "Konstitusiya" qəzetinin təsisçisi və redaktoru kimi də fəaliyyət göstərmisiniz.

İlk mətbu şeiriniz olan "Qar" 1972-ci ildə Yardımlıda çıxan "Yeni kənd" qəzetində işıq üzü görüb. "Heyrət" ədəbi məclisinin yaradıcısısınız. "Haqqa dayaq doğulmuşuq", "Torpağın səsi", "Ovqatın aynası", "Yol gedənindir", "İman qaynağı", "Fəzilət yolu" adlı kitablarınız nəşr olunub.

Hörmətli Tapdıq Əlibəyli!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, sizə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**